# Xalq Bankın xalqa növbəti hədiyyəsi





***Xalq Bank "Xalq əmanəti" mədəniyyət layihəsinin növbəti nəşri olan Azərbaycanın görkəmli fırça ustası, Xalq rəssamı Nadir Əbdürrəhmanovun ən yaxşı əsərlərindən ibarət nəfis fotoalbomu bu günlərdə təntənəli surtətdə ictimaiyyət nümayəndələrinə təqdim etdi.***

Ölkənin tanınmış ziyalılarının və media təmsilçilərinin iştirakı ilə Xalq Bankın mərkəzi ofisinin sərgi salonunda keçirilən təqdimat mərasimində Nadir Əbdürrəhmanovun Azərbaycan təsviri incəsənəti xəzinəsini zənginləşdirmiş irsinin milli və estetik dəyərlərindən söz açıldı, bankın "Xalq əmanətini xalqa qaytaraq" missiyasının önəmi vurğulandı.

Layihənin rəhbəri, tanınmış teleaparıcı Rafiq Haşımov toplaşanları Xalq Bankın rəhbərliyi adından salamlayaraq "Xalq əmanəti" seriyasından nəşr olunamuş 4 sevimli şairimizin kitabları, 7 məşhur rəssamımızın albomları və digər 2 tematik nəşr barədə məlumat verdi. O bildirdi ki, "Xalq əmanəti" layihəsi 2010-cu ildən etibarən həyata keçirilir, xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılmasına xidmət edir.

Layihə çərçivəsində nəşr olunan kitablar Azərbaycan, ingilis, rus dillərində çap olunur, ölkənin ali və orta təhsil müəssisələrinə, uşaq evlərinə, kitabxanalara, müxtəlif fondlara, dövlət idarələrinə, xarici nümayəndəliklərə, dünyanın böyük muzeylərinə və kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə olunur. Bu nadir silsiləyə Nadir Əbdürrəhmanovun irsinin də daxil edilməsi tamamilə qanunauyğundur. O, xəlqi sənəti, yüksək bədii amalı, şəxsiyyətinin kamilliyi və milli rəssamlığımıza xidmətləri ilə ölməzliyə qovuşmuşdur.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov Nadir Əbdürrəhmanovun zəngin həyat və fəaliyyəti barədə məlumat verərək bildirdi ki, 1925- ci ildə Laçında anadan olmuş rəssamın təsviri sənətə marağı erkən yaşlardan özünü büruzə vermişdir. Bu həvəs onu Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə gətirmişdir. Müharibədən sonrakı illərdə isə Nadir Əbdürrəhmanov Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsil almışdır.

İstedadlı rəssam məhsuldar yaradıcılığı ilə yanaşı, gənclik illərindən Rəssamlıq Məktəbində də dərs demişdir. Sonrakı illərdə o, ustad dərslərini Mədəniyyət və İncəsənət Universitetinin professoru və Rəssamlıq Akademiyasında yaradıcılıq emalatxanası rəhbəri kimi davam etdirmişdir.

Nadir Əbdürrəhmanov 2 seçki respublika Ali Sovetinin deputatı olmuşdu, bir müddət Rəssamlıq İttifaqına rəhbərlik etmişdi. Bir sıra ölkələrdə yaradıcılıq ezamiyyərində olmuş və xaricdə dəfələrlə sərgiləri keçirilmişdi. Yaradıcılığı yüksək qiymətləndirilərək, ona respublikasının "Əməkdar incəsənət xadimi və Xalq rəssamı" fəxri adları, "Şöhrət" ordeni verilmişdi.

Rəssamlar İttifaqının sədri Azərbaycanın Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Vəcihə Səmədova və digər dünyaca məşhur fırça ustalarının sırasında Xalq rəsaamı Nadir Əbdürrəhmanovun da fotoalbomunun nəşrinə görə rəssamlar adından Xalq Bankın rərbərliyinə təşəkkürünü bildirdi, layihə müəlliflərinə gərəkli fəaliyyətlərində uğurlar arzuladı.

Nizami adına Ədəbiyyat Muzeyinin direktoru, Milli Məclisin deputatı, akademik Rafael Hüseynov "Xalq əmanəti" layihəsinin görkəmli şair və rəssamların ölməz irsinin yeni nəsillərə çatdırılmasında Xalq Bankın dəyərli təşəbbüsünün cəmiyyətdə məmnunluqla qarşılandığını söylədi. Nadir Əbdürrəhmanovun sənət irsinin özəlliklərindən söz açan alim bildirdi ki, yaradıcılığındakı dərin realizm və milli kolorit rəssamı yaxın- uzaq ölkələrdə mahir fırça ustası kimi tanıtmışdır.

Yeni forma axtarışları, sərt realizmi və miniatür sənəti ilə səsləşən orijinal dəst-xətti, təsviri sənətdə dekorativliyə və kolorit zənginliyinə xüsusi diqqət yetirməsi rəssamın özünəməxsus üslubunun formalaşmasında mühüm rol oynamışdır. Onun müxtəlif janrlarda yaratdığı iriformatlı süjetli lövhələr qiymətli sənət nümunələri kimi rəssamlıq tariximizə daxil olmuşdur. Palitra əlvanlığı ilə diqqəti çəkən və geniş diapazona malik olan bu əsərlər İncəsənət Muzeyinin, eləcə də digər muzeylərin və qalereyaların daimi ekspozisiyalarında nümayiş etdirilir.

Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Ömər Eldarov görkəmli rəssamın mükəmməl albomunun nəşrindən doğan razılığını ifadə edərək, onun sənətinin yüksək bədii dəyərindən söz açdı. O qeyd etdi ki, Azərbaycan torpağının əsrarəngiz gözəllikləri və müasirlərin qurub- yaratmaq əzmi sənətkarın yaradıcılığının başlıca ilham qaynağı olmuşdur. Rəssamın xalqımızın tarixi keçmişini rənglərin dili ilə dolğun əks etdirən tabloları Vətənə məhəbbət və milli qürur hissi aşılayır. Nadir Əbdürrəhmanovun kompozisiya yığcamlığı ilə seçilən və öz emosional təsir gücü ilə yaddaqalan əsərləri gənc nəsillərin vətənpərvərlik ruhunda yetişdirilməsi baxımından da böyük əhəmiyyət kəsb edir.

Xalq rəssamı Tofiq Ağabalayev də sənət dostunun irsini çağdaş nəsillərə çatdırmaqda önəmli rol oynayacaq yeni nəşrin işıq üzü görməsindən duyduğu sevinci ifadə etdi, O söylədi ki, Nadir Əbdürrəhmanov çoxillik zəngin sənət təcrübəsini gənc rəssamların hazırlanmasına sərf edərək milli rəssamlıq məktəbinin inkişafına töhfələr vermişdir.

Nadir Əbdürrəhmanovun oğlu, rəssam Arif Əbdürrəhmanov da atasının irsinə göstərilən diqqətə görə Xalq Bankın rəhbərliyinə və layihənin icraçılarına minnətdarlığını çatdırdı.

Mərasim iştirakçıları Nadir Əbdürrəhmanovun seçmə əsərlərindən ibarət sərgiyə baxdılar, onlara yeni albomun nüsxələri hədiyyə olundu.

*Tahir AYDINOĞLU,*
*Foto Rafiq Salmanovundur,*
*"Xalq qəzeti"*